UOT 94(479.24); UOT 66.2

GÜLARƏ ABBASOVA
Fəlsəfə üzrə fəlsəfə doktoru,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti, "İctimai fənlər" kafedrası
multikultural@mail.ru
ORCID ID: 0009-0009-8088-4830

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ İNKİŞAFI

DOI: https://doi.org/10.36719/2708-065X/105/110-115

AXC qonşuluğa mühüm iqtisadi faktor kimi baxırdı. Demokratik respublikanın xarici iqtisadi əlaqələrinin formalaşması baxımından Azərbaycan və Gürcüstan respublikaları arasında bağlanan müqavilə hüquqi və iqtisadi sənəd kimi diqqəti cəlb edir.

AXC-nin iqtisadiyyatın dövlət tənzimlənməsi sahəsində təcrübəsi də maraq doğurur. Dövlət sektoruna dövlətin iqtisadiyyata təsirinin amili kimi baxılırdı. Mülkiyyət çoxnövlüyü təmin edilərkən dövlət mülkiyyətinə xüsusi əhəmiyyət verilirdi. Belə hesab olunurdu ki, dövlətin gücü təkcə onun qanunvericilik fəaliyyətində deyil, dövlət mülkiyyətinin güclü olmasındadır.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, iqtisadi islahatlar, iqtisadi əlaqələr, dövlət quruculuğu, sosial-iqtisadi inkişaf , iqtisadi-ticarət əlaqələri.

Giriş. Keçmiş Rusiya İmperiyasının dağıntıları içərisindən yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə aparılmış iqtisadi islahatlar dövlət quruculuğunun əsas istiqamətlərindən biri idi. Olduqca çətin bir dönəmdə dövlət yaratmaq, iqtisadi problemlərin də həllini tələb edirdi. Cümhuriyyətin yaranması və onun fəaliyyəti xalqın dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun inkişafına böyük təsir göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti tarixinə həmin dövrdə ölkədə milli iqtisadiyyatın və xarici iqtisadi-ticarət əlaqələrinin yaradılması istiqamətində ilk müstəqil addımlar atılmışdır.

Azərbaycan Cümhuriyyətinin iqtisadi və siyasi platforması bütün vətəndaşların həqiqi hüquq bərabərliyini təmin etmək idi. AXC demokratik bir cəmiyyət qurmağı nəzərdə tuturdu. Bu məqsədə çatmağın əsas vasitəsi mülkiyyət formasının müxtəlifliyi prinsipini həyata keçirməkdən,dövlətə,xüsusi şəxslərə,özünü idarə orqanlarına məxsus mülkiyyət formalarının inkişafı üçün demokratik şəraiti təmin etməkdən ibarət idi.

Cümhuriyyət hökuməti bolşevik-daşnak talanları nəticəsində dağılmış iqtisadiyyatı bərpa etməyə başladı. Hökumətin iqtisadi siyasəti dövlətimizin inkişafına və xalqın rifahını yüksəltməyə yönəlmişdi. Əhalinin ərzaqla fasiləsiz təmin edilməsi,bahalığın qarşısının alınması üçün 1918-ci il iyunun 27-də hökumət taxıl, mal-qara və digər ərzaq məhsullarının ölkədən kənara çıxmasını qadağan edən qərar qəbul etdi. Başqa bir qərarla respublika ərazisində azad ticarətə icazə verildi. Hökumət iqtisadiyyatının əsas sahəsi olan neft sənayesini dirçəltməyə xüsusi diqqət yetirirdi. AXC hökuməti 5 oktyabr 1918-ci il tarixli fərmanla Bakı XKS-nin milliləşdirilmə haqqında dekretlərini ləğv etdi. Bütün neft mədənləri, fabrik-zavod, ticarət gəmiləri sahiblərinə qaytarıldı. Xarici şirkətlərlə neftin satışına dair sazişlər bağlandı. Rusiya bazarı itirildiyindən Azərbaycan neftini qonşu ölkələrə və Batum limanı vasitəsilə Qərbi Avropaya ixracı qaydaya salındı.

Bu il böyük iftixar hissi ilə 106 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə iqtisadiyyat sahəsində də o dövr üçün böyük əhəmiyyəti olan iqtisadi islahatlar aparılmış, beynəlxalq iqtisadi əlaqələr yaradılmış, gənc dövlətin sosial-iqtisadi siyasətinin əsasları formalaşdırılmışdır. Cəmi 23 ay mövcud olmuş AXC hökumətinin həyata keçirdiyi iqtisadi islahatların əsas mahiyyəti və hədəfləri yeni müstəqil dövlətin sosial-iqtisadi cəhətdən möhkəmləndirilməsi idi. Xüsusən də bu məqsədlə aparılan aqrar islahatları, torpaqların kəndlilərə verilməsini, mülkiyyətin bütün formalarına bərabər şəraitin yaradılmasını, maliyyə-vergi siyasətini, milli valyutanın buraxılmasını, dövlət

bankının yaradılmasını, dövlət büdcəsinin formalaşdırılmasını, dağılmış infrastrukturun yenidən qurulmasını, sənayenin inkişafı istiqamətində mühüm qərarları, xarici ticarət əlaqələrinin qurulması sahəsindəki mühüm addımları qeyd etmək lazımdır.

M.Ə.Rəsulzadə «Əsrimizin Səyavuşu» əsərində yazırdı: "Əsas məqsəd cəmiyyətin bütün vətəndaşlarının bərabər yaşamaq hüququ əsasında qurulması idi. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə varlı, nə də yoxsulluğuna görə haqsız sayılırdı… Azərbaycan zehniyyətincə, dünyanın əvvəlindən bəri insanların yaşayış və iqtisadiyyatında qarşılaşdıqları ədalətsizliyi birdən-birə ortadan qaldırmaq, inqilabçı bir zərbə ilə mülkiyyəti və bununla bağlı insanlar arasında ortaya çıxan səfaləti aradan götürmək mümkün deyildi. Bundan anarxiya, daha çox səfalət çıxar və iç qarışıqlıqlardan başqa ayrı bir nəticə alına bilməzdi» (7).

Cümhuriyyət hökumətinin Azərbaycanda həyata keçirdiyi iqtisadi fəaliyyət, əsasən, 1919-cu ildə daha əhəmiyyətli olub. Həm bu ilin bütünlüklə cümhuriyyət dövrünə daxil olması, həm də hökumətin strukturlarının tam formalaşdırılması bir sıra islahatların həyata keçirilməsinə imkan yaradıb. 1919-cu ildə Azərbaycanın dövlət büdcəsi 665 milyon manata bərabər olub. Bunun böyük hissəsini neft satışından əldə edilən gəlirlər və tutulan mənfəət vergisindən daxil olmalar təşkil etmişdir. Büdcəni formalaşdırmaq üçün əsas mənbə gəlir vergisi idi. 1919-cu ildə ölkədə mənfəət vergisinin dərəcəsi 30 faizə bərabər olub. Büdcə daxilolmalarında ikinci mühüm mənbə şərab, tütün və xüsusən, neft məhsullarından alınan aksiz vergisindən ibarət idi. Bunlarla bərabər, büdcənin 100 milyon manatlıq hissəsini gömrükdən, 15 milyon manatını isə azad ticarət, yük, sərnişin daşınmasından toplanan rüsum təşkil edib. Məhdud imkanları olan büdcənin çox hissəsi əməkhaqlarının verilməsinə yönəldilib. Hökumət, az da olsa, büdcədən təhsil üçün 30 milyon, hərbi xərclər üçün 80 milyon manat vəsait ayıra bilmişdi. AXC qurulana qədər baş verən münaqişələr səbəbindən çoxlu yaşayış məntəqələri dağıdılmışdı. Büdcədən təxminən 130 milyon manat məhz bu çatışmazlıqların aradan qaldırılması üçün istifadə edilib.

Cümhuriyyət dövründə Azərbaycan iqtisadiyyatında neft sektoru aparıcı mövqeyə sahib olub. Cümhuriyyət illərində Azərbaycanda 1918-ci ildə 3287 quyudan 185, 6 milyon pud (2,96 milyon ton), 1919-cu ildə 2066 quyudan 225,1 milyon pud (3,6 milyon ton), 1920-ci ildə 2037 quyudan 175,1 pud (2,8 milyon ton) neft çıxarılıb.

Azərbaycan neftinin əsas alıcısı ilk vaxtlar Rusiya, daha sonra isə görülən tədbirlər nəticəsində Avropa ölkələri olub. Rusiyada inqilabla əlaqədar Azərbaycandan neftin ixracı 1919-cu ildə ciddi dərəcədə azalıb. Bu amil Azərbaycan iqtisadiyyatında ciddi böhranın yaranmasına səbəb olub. Şimal bazarının bağlanması nəticəsində 1919-cu ildə respublikada hasil olunan 3,6 milyon ton neftin yalnız 600 min tonu ixrac edilib.

Avropaya neft ixracı 1919-cu ilin mart ayında uzunluğu 500 km, nəql etmək gücü 3 milyon ton olan Bakı-Batumi neft kəməri bərpa edildikdən sonra mümkün olub. Neft ixracının güclənməsi ölkəmizin bütün istehsal sahələrinin inkişafına təkan verib. Həmin dövrdə elektrik stansiyalarının gücü 63,7 min kVt-a çatdı ki, bunun da 56 min kVt-ı "Ağ şəhər" və "Bibiheybət" stansiyalarının payına düşüb.

Azərbaycan Cümhuriyyətinin iqtisadi tədbirlərindən biri də gənc Respublikanın maliyyə sistemini tənzimləmək və xəzinədə vəsait toplanılmasın nail olmaq idi.Lakin Azərbaycan Cümhuriyyətinin maliyyə vəziyyəti çox ağır idi. Parlament iqtisadiyyatı bərpa etmək məqsədilə bir sıra qanunverici aktların hazırlanmasına başladı. Dövlət vergi siyasətinin formalaşmasına yardım edən qanunlar zərfi hazırlanmışdı. 1918-ci il iyulun 18-də Azərbaycan hökuməti İstanbuldakı Azərbaycan nümayəndə heyətinə Azərbaycan manatı hazırlanmasını sifariş etməyi tapşırdı. 1918-ci il sentyabrın 22-də hökumət Bakı bonunu dövriyyəyə buraxmağı qərara aldı.Tezliklə 30 milyon bon-manat kəsildi.

Hər bir dövlətin əsas iqtisadi atributlarından biri, təbii ki, onun milli valyutasıdır. Azərbaycanın milli valyutası olan manat məhz 1919-cu ilin əvvəllərində tədavülə buraxılıb. İlk əsginaslar 25, 50, 100 və 250 manatlıq olub. Bir qədər sonra manatın daha böyük 500-lük əsginası emissiya edilib. Azərbaycan birjalarında pulların məzənnələrinə diqqət yetirdikdə görünür ki, manatın kursu aparıcı valyutalara nisbətən çox aşağı olub. Məsələn, 1919-cu ildə 100 rublluq "Romanovlar" 350 manat, 1 ingilis funt-sterlinqi 315 manat, 1 Amerika dolları 280 manat, Fransa frankı 10 manat, İtaliya lirəsi 7 manat, İran tüməni 125-230 manat, rus onluq qızıl valyutası 420 rubl manat və s. təşkil edib.

Maliyyə-pul siyasətini daha da gücləndirmək üçün 1919-cu il sentyabr ayının 30-da Bakıda Azərbaycan Dövlət Bankı təsis olunub. 1919-cu il oktyabrın 25-də kredit bankları və şəhərlərdə əmanət kassaları fəaliyyətə başlayıb.

Azərbaycan həmin illərdə aqrar ölkə olsa da, strateji məhsulların çox hissəsini idxal hesabına təmin edib. Taxıla olan ehtiyacını qarşılamaq üçün xaricdən 7 milyon pud (112 min ton) buğda alıb. Təxminən 16 min ton şəkər idxal edib.

AXC xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrində barter üsulundan geniş istifadə edirdi, alınan malların və təbii sərvətlərin müqabilində daha çox neft verilib. Azərbaycan Amerikadan, Fransadan, İtaliyadan və digər xarici ölkələrdən gətirdiyi hərbi sursatın, telefon aparatlarının, minik avtomobillərinin, yüz ədəd parovozun, iki min sisternin, beş yüz bağlı vaqonun, ərzaq məhsullarının dəyərini, əsasən, neft, pambıq, yun, ipək, gön və dəri ilə ödəyib.

Müstəqil dövlətin atributu kimi milli pul vahidinin buraxılması AXC-nin maliyyə siyasətinin mühüm tərkib hissəsi idi Bakıda yeni kağız pullar - "Bakı bonları" buraxıldı. O, vaxtadək "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənirdi. Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması hökumətin iqtisadi siyasətinin əsas qayğısı oldu. Çünki AXC-nin milli valyutası inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparırdı. Bu məqsədlə aşağıdakı tədbirlər həyata keçirildi: müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradıldı; Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açıldı, Sentyabrın 30-da dövlət bankının açılışı oldu.Gəncə bankı isə Dövlət Bankının şöbəsi statusu aldı.

Dövlət bankının yaradılmasını milli sahibkarlar sevinclə qarşıladılar.Hacı Zeynanabdin Tağıyev AXC-ni "Doğma Vətənimizin üzərində parlayan müstəqillik günəşi adlandırmışdı". H.Z.Tağıyev özünün bütün iqtisadi və maliyyə imkanlarını Cümhuriyyətin inkşafına yönəltmişdi. O,hökuməti azad sahibkarlığı və sərbəst iqtisadiyyatı qorumağa və inkşaf etdirməyə çağırdı: Azad sahibkarlar dövlətin dostu və dayağıdır.

Maliyyə Nazirliyinin 20 iyul 1919-cu il tarixli qərarı ilə əmtəələrin sərbəst ixracı təmin edildi, AXC parlamentinin bu məsələyə həsr olunan 24 noyabr 1919-cu il tarixli iclasında müxtəlif fikirlər müzakirə olundu. Həmin iclasda qərar qəbul olundu ki, əsas diqqət xəzinənin doldurulmasına yönəldilməlidir. Xəzinəyə müəyyən rüsum keçirmək şərti ilə (ixrac olunan xammalın dəyərinin 25 faizi həcmində) xammal ixracına icazə verilməsinə dair qanun (11 dekabr 1919-cu il) qəbul edildi, xaricə gizli yolla gümüş, qızıl, platin aparılmasına görə məsuliyyət məsələsinə baxıldı və bu məsələ 20 oktyabr 1919-cu il tarixli qanunda öz geniş əksini tapdı.

Ordu quruculuğu, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, xarici təhlükənin qarşısının alınması parlamentin fəaliyyətinə daxil olan çox mühüm sahələrdən idi. 1918-ci il oktyabrın 18-də Müdafiə Nazirliyinin yaradılması qərara alındı. Parlamentdə hərbi iş haqqında 9 qanun müzakirə edildi, büdcənin böyük hissəsi ordu quruculuğuna ayrıldı.

1918-ci il noyabrın 15-də təşkil edilən baş qərargahın rəisi isə Süleyman Sulkeviç təyin edildi. Qərargah şöbələrinin zabit kadrları ilə təmin edilməsi problemimi həll etmək üçün Azərbaycanda olan rus zabitlərindən istifadə etmək qərara alındı. Türk əsgər və zabitləri ruslarla əvəz edilirdi. Azərbaycan hökuməti çox çətin bir vəziyyətə düşmüşdü. Öz kadrları yox idi. Nuru paşanın vaxtı ilə yaratdığı hərbi məktəbin müdavimləri də ordunun təşkilinə cəlb edilirdi.

1919-cu ildə 25 mindən ibarət ordu yaratmaq vəzifəsi qarşıya qoyulmuşdu. "Ordunun yaradılması ilə bağlı 1919-cu il üçün nəzərdə tutulmuş dövlət büdcəsindən 399.40 min manat ayrılırdı ki, bu da büdcənin 24%-nə bərabər idi. 1919-cu ilin yanvarında Əmək Nazirliyi yaradıldı"(4).

Bakı şəhərində zəruri ərzaq malları ilə təminatı qismən yaxşılaşsa da əhalinin real əmək haqqı aşağı idi.

1919-cu ildə Ələt-Culfa dəmir yolu tikintisini davam etdirmək üçün parlament 250 milyon manat pul ayırdı.

1919-cu il fevralın 4-də torpaq islahatı haqqında qanun layihəsi hazırlamaq üçün Səməd Bəy Ağamalıoğlu başda olmaqla xüsusi parlament komissiyası yaradıldı.Komissiyanın qərarına görə:

1.Respublika ərazisində bütün torpaqlar dövlətin mülkiyyətindədir;

2.Torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir;

3.Əvvəlki mülklərinin müəyyən hissəsi sahibkarların istifadəsi üçün özündə qalır (5).

AXC dövründə əkinə yararlı torpağın 30 faizi dövlətə, 20 faizi mülkədara, 50 faizi kəndlilərə məxsus idi. AXC özünün xarici-iqtisadi siyasət sahəsində fəaliyyətini ancaq qanunların işlənib hazırlanması ilə məhdudlaşdırmır, onların həyata keçirilməsi istiqamətində mühüm addımlar atırdı. Məsələn, xarici dövlətlərlə əmtəə mübadiləsini qaydaya salmaq üçün ağır maliyyə vəziyyəti şəraitində 20 milyon manatlıq fond yaradıldı və hökumətin 12 fevral 1919-cu il tarixli qərarı ilə bu fonddan ilkin ehtiyatlar üçün 10 milyon manat həcmində kredit buraxılması qərara alındı. AXC-nin Ticarət, Sənaye və Ərzaq Nazirliyinin nəzdində Xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi fəaliyyət göstərirdi.

1919-cu il martın 17-də parlamentin qəbul etdiyi yeni qanuna əsasən yerlərdə vergi yığmaq hüququ üzvləri,zemstvo yığıncaqları və icmalar tərəfindən seçilən gəlir vergisi üzrə quberniya və qəza idarə heyətlərinə verildi. Bundan əlavə, iyulun 16-da parlament Maliyyə Nazirliyi nəzdində vergi müfəttişi vəzifəsini təsis etdi,ona vergi müvəkkillərinin və vergi məntəqələrinin fəaliyyətini nəzarətində saxlamaq və təftiş etmək səlahiyyəti həvalə olundu.

İstiqlalın görkəmli lideri olan Məhəmməd Əmin Rəsulzadə sosial ədalətsizliyin aradan qaldırılmasının başlıca vəzifə olduğunu bildirərək, Cümhuriyyətdə iqtisadi islahatların nə qədər vacib olduğunu "Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır" fikri ilə ifadə etmişdir (5).

Parlamentin qəbul etdiyi aktlarda kredit bank və gömrük sahələri xüsusi yer tuturdu. 1919-cu il mayın 17-də vergi toplanması haqqında qanun qəbul edildi. Əkinçilərin üzərində qoyulan verginin miqdarı aşağı salındı. Parlament pul emissiyasını nəzarət altına aldı,hökumətə icazə olmadan pul kəsilməsini qadağan etdi. Parlament gömrük sahəsində 20-dən çox qanun qəbul etdi və sərhədlərdə nəzarətin gücəndirilməsini etibarlı kadrlara tapşırdı. Parlament 1920-ci il yanvarın 15-də kənddəki sahibkarlara, sənətkarkara, sənayeçilərə, şirkətlərə inventar, mal-qara, toxum almağa yardım göstərmək üçün xırda kredit haqqında qanun qəbul etdi. AXC-nin iqtisadi tədbirləri sırasında ən əhəmiyyətlisindən biri də qonşu və xarici dövlətlərlə iqtisadi əlaqə yaratmaqdan ibarət idi. Cümhuriyyət İraq, İngiltərə, Amerika, Fransa, İtaliya, Gürcüstan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqələr yaratmağa nail olmuşdu.

Parlament mədəni quruculuq sahəsində də bir sıra tədbirlər həyata keçirdi. M.Ə.Rəsulzadə, S.Ağamalıoğlu, Q.Qarabəyli bu işdə axıra qədər ardıcıl mövqe tutdu.

Azərbaycan Xalq Maarifi nazirinin müavini Həmidbəy Şahtaxtinski görkəmli rus alimi Razumovskiyə, Cənubi Qafqaz Universitetinin təşkili üçün kömək göstərməsini xahiş etmişdi. Razumovski dəvəti qəbul etmişdi və yaradılan komissiyanın sədri seçilmişdi. 1919-cu il mayın 19-da komissiya təsdiq edildi.

Mayın 31-də isə komissiya Bakı Universitetinin yaradılması haqqında qanun layihəsini, Universitet nizamnaməsini, Universitet xərclərini Xalq Maarif nazirliyinə təqdim etmişdi. Universitetin yaradılması haqqında layihə 1919-cu ilin iyul-avqust aylarında qanunvericilik, maliyyə-büdcə komissiyalarında, parlamentin ümumi iclaslarında müzakirə edildi. "Universitet komissiyası avadanlıq, təşkilatı və quruculuq işlərinə 3.5 min rubl verilməsini xahiş etdi. Maarif naziri Kaplanov həmin məbləği 5 min rubl artırmağı lazım bildi" (3).

1919-cu il sentyabrın 1-də parlament Bakı Universitetinin yaraılması haqqında qanunu qəbul etdi. Həmin iclasda 1919/20-ci tədris ili üçün xarici ölkələrin ali məktəblərinə 100 abituriyent və tələbə göndərilməsi haqqında qətnamə qəbul edildi. Bu tələbələr üçün Maarif Nazirliyinin sərəncamına dövlət xəzinəsi vəsaitindən 7 min rubl ayrıldı: Avropaya göndərilən hər bir adam üçün hər ay 400 frank təqaüd, 1000 frank da yol xərci, Rusiyaya göndərilən hər bir adam üçün hər ay 3 min rubl təqaüd, 3 min də yol xərci. Hökumət təqaüdündən istifadə edən tələbələr təhsil müddəti qurtardıqdan sonra hökumətin müəyyən etdiyi yerdə 4 il xidmət etməli idi.

AXC dövründə Azərbaycanda 637 ibtidai, 23 orta ixtisas və 1 ali məktəb fəaliyyət göstərirdi. Xalq Maarifi Nazirliyi türk dilində dərsliklərin hazırlanması məqsədilə 20 milyonluq fonddan 150 min rublun ayrılması haqqında sərəncam vermişdi. Zəruri dərsliklərin hazırlanması məqsədilə dövlət 18 sentyabr 1918-ci il tarixdə Xalq Maarifi Nazirliyinə bütün dövlət və ictimai nəşriyyatları öz idarəçiliyinə almaq və şəhərdə olan kağız ehtiyatlarını rekvizit etmək səlahiyyətləri vermişdi. Bununla yanaşı, Nazirlər Şurası türk dilində dərsliklərin çap olunması üçün kağız almaq məqsədilə 500 rubl ayırmışdı.

Bakı "Kitab" kooperativi tədris müəssisələrinin dərsliklər və vəsaitlərlə təmin edilməsinə yardım edirdi. Eyni zamanda xalq məktəbi kitabxanaları üçün Türkiyədən 1 milyon rubl məbləğində müxtəlif fənlər üzrə kitablar alınmışdı. Xalq Maarifi Nazirliyinin 1918-ci ilin dekabr ayında keçirilən iclasının 5 №-li protokolunda müsəlman məktəblərində dərs demək üçün müəllim hazırlığının həyata keçirilməsi əsas məsələ kimi qoyulmuşdu və bu məqsədlə birillik hazırlıq kurslarının təşkili qərara alınmışdı. Gəncədə həm kişi, həm də qadınlar üçün iki aylıq pedaqoji kursların açılması haqqında qanun imzalanmış və qanuna əsasən bu məqsədlə dövlət xəzinəsində 2.390.000 rubl ayrılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyəti dövründə təqdim olunmuş 315 layihəsindən 82-si Maliyyə Nazirliyi tərəfindən təqdim edilmişdi. Parlamentə təqdim olunmuş qanun layihəsinə görə, vergi məsələsi ilə bağlı bütün şikayətlərə Maliyyə Nazirliyi əməkdaşlarından ibarət şura baxmalı idi.

Yuxarıda da bəhs edildiyi kimi, Cümhuriyyət dönəmində inflyasiya yüksək idi və günü-gündən yüksələn qiymətləri insanların yaşam standartlarını endirirdi. Bu məqsədlə AXC 1918-ci il 3 iyun, 21 sentyabr, 13 oktyabr, 1919-cu il 10 fevral, 21 aprel, 1920-ci il 5 yanvar tarixli qərarlarla hökumət qulluqçularının maaşı (iki il müddətində 6 ayrı qərarla) artırıldı. Bundan başqa, həmin illərdə "Qulluqçulara müavinət verilməsi", "Maaşlara müvəqqəti əlavələr" kimi qanunlar da qəbul edilmişdir. Nəticə etibarilə 1919-cu il iyun tarixli qərarla minimum əməkhaqqı yüksəldilmişdir (4).

Dövlət milliləşdirmə və əks-milliləşdirmə tədbirlərinin həyata keçirilməsi ilə paralel əmək münasibətlərinin qaydaya salınmasını təmin edirdi. Həmçinin daxili və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün iqtisadi-hüquqi qanunların hazırlanmasına, onların yerinə yetirilməsinə böyük əhəmiyyət verirdi. Az vaxtda parlament tərəfindən yalnız maliyyə, vergi, bank-kredit sahələri üzrə 80-dən çox qanun layihəsi işlənib hazırlandı, bir çox qanunlar təsdiq olundu.

Mövcud olduğu 23 ay ərzində AXC bir sıra cari təsərrüfat və mədəniyyət məsələlərinin həllində böyük uğurlar qazandı. Neft sənayesi ağır vəziyyətdən çıxarıldı, dağıdılmış Bakı-Batum neft kəməri bərpa olundu, Bakı-Culfa dəmir yolu inşa edildi.

1919-cu ilin yanvar-fevral aylarında keçirilən iclaslarından birində Fətəli xan Xoyski demişdir: "Belə mühüm zamanda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olmaz" (3).

Azərbaycan Xalq Cümhuriyyətinin qarşısına qoyduğu sosial-iqtisadi inkişaf proqramının tam həyata keçirilməsinə 1920-ci il aprel işğalı imkan vermədi.

Nəticə. Cəmi iki ilə yaxın yaşamış AXC zəngin dövlət quruculuğu təcrübəsi, iqtisadi islahatları ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuşdur. Az bir zamanda atılan sosial-iqtisadi addımlarla əhalinin rifahı yüksəlmişdir. AXC xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin yaratmışdır.

AXC dövrnüdə iqtisadi gedişlər zəngin təcrübə mənbəyi olaraq bu günümüzdə və sabahımızda dövlətçilik ənənəmizin gözəl çalarlarından biri kimi öyrənilməyə, yaşadılmağa layiqdir. Xalq Cümhuriyyətinin iqtisadi fəaliyyətinə nəzər salsaq aydın görünür ki, reallaşdırılması nəzərdə tutulan layihələr Azərbaycanı sürətli inkişaf yoluna cıxarmaq, dünyaya yeni, sivil formada təqdim etmək məqsədi daşıyırdı. Məsələn, hökumətin iqtisadi platformasında mühüm yer tutan mülkiyyət plüralizmin gerçəkləşdirilməsi, başqa sözlə, dövlət, xüsusi, səhmdar, bələdiyyə və s. mülkiyyət formalarının uğurla yaradılması prosesi bunun məntiqi nəticəsi idi.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı. 26 may 1998-ci il. Azərbaycan Respublikasının Milli Məclisinin məlumatı. № 2-3 (10-11), 1998, 30 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Parlamen (stenoqramma),1-ci hissə. Bakı: "Milli Kitabxanasının mətbəəsi" 1998, 974 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Parlament (stenoqramma), 2-ci hissə. Bakı: "Milli Kitabxanasının mətbəəsi" 1998, 990 s.
4. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı: "Elm", 1998, 335 s.
5. Azərbaycan Demokratik Respublikası. Bakı: "Elm", 1992, 190 s.

6.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, I cild, Bakı, "Lider" nəşriyyatı, 2004, 440 s.
7. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı: "Təknur", 1993, 110 s.
8. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: "Elm", 1993, 116 s.

ГЮЛАРА АББАСОВА
доктор философских наук, доцент
Азербайджанский Университет Архитектуры и Строительства,
кафедра «Общественные науки»

ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

АДР рассматривала этот район как важный экономический фактор. В плане формирования внешнеэкономических связей демократической республики соглашение, заключенное между республиками Азербайджан и Грузия, привлекает внимание как правовой и экономический документ.

Интересен также опыт АДР в сфере государственного регулирования экономики. Государственный сектор рассматривался как фактор влияния государства на экономику. Государственной собственности придавалось особое значение при обеспечении многообразия форм собственности. Считалось, что сила государства заключается не только в его законодательной деятельности, но и в силе государственной собственности.

Ключевые слова: Азербайджанская Демократическая Республика, экономические реформы, экономические отношения, государственное строительство, социально-экономическое развитие, торгово-экономические отношения.

GULARA ABBASOVA
Doctor of Philosophy,
Associate professor of Azerbaijan University of Architecture and Construction,
"Social Sciences" department

ECONOMIC DEVELOPMENT OF THE PEOPLE'S REPUBLIC OF AZERBAIJAN

APC viewed the neighborhood as an important economic factor. In terms of the formation of foreign economic relations of the democratic republic, the agreement concluded between the republics of Azerbaijan and Georgia attracts attention as a legal and economic document.

APC's experience in the field of state regulation of the economy is also interesting. The public sector was viewed as a factor of the state's influence on the economy. State ownership was given special importance while ensuring the diversity of ownership. It was believed that the power of the state lies not only in its legislative activity, but also in the strength of state property.

Keywords: Azerbaijan Democratic Republic, economic reforms, economic relations, state building, socio-economic development, economic-trade relations.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: f.ü.f.d. Zəkiyyə Əsgərova, t.e.d. Qabil Əliyev.